# SABİR BƏŞİROVUN ƏDƏBİ YOLU, ƏBƏDİ YOLU



**Şəddat CƏFƏROV**

***"Bakı mətbəəsi"nin direktoru, Respublikanın ilk poliqrafçı alimi, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü***

*(Əvvəli ötən sayımızda)*

Zaman ötəndən sonra həyatımızın bir çox fürsətlərini yada salanda təəssüf hissi varlığımıza hakim kəsilir. Zamanında imkanımızın əl verdiyi qədərdə səyahət etmədiyimizə, müasirlərimiz olan, ruh etibarı ilə bizə doğmalığı ilə fərqlənən insanlarla yaxın təmas fürsətlərini qaçırdığımız üçün təəssüf edir, həyatımızı daha da maraqlı edən, ömrümüzə rəng qatan dəyərli insanlar gözlərimizin önündən kino lenti kimi keçir.

diyimiz parçaya diqqət etmək bəs edir ki, Sabir Bəşirovun ədəbiyyatı qlobal şəkildə necə qavradığını dərk edəsən. O yazır: *"Məncə, yaradıcı insanın nədən yazması əsas şərtdir. Bu nədən yazmaq necə yazmağı da müəyyən edir - yəni fikir, özünəməxsus ifadə forması da tapır. Nədən yazmaq yaradıcı insanın nə düşündüyü, gerçəkliyi necə əks etdirməsi, hadisələri, dünyanı necə dərk etməsi... suallarını da cavablandırır..."*. Sabir Bəşirov bu qeydlərindən də göründüyü kimi təkcə onu maraqlandıran suallara cavab vemrir, həm də müəllifi maraqlandıran sualların cavabını axtarır.

Məlumdur ki, yazıçını maraqlandıran sualların cavabları həyatdadır. Ona görə də həyat, cəmiyyət bütövlükdə mövzu bazasıdır. Sabir isə filosof-tənqidçi kimi cəmiyyətin görünən və görünməyən tərəflərini göstərmək gücündə idi. O, həyatın yalnız iki rəngdən ibarət olmadığı qənaətində idi. Rəng çalarlarını isə məxsusi olaraq ədəbiyyat vasitəsilə şərh edə bilirdi.

Həqiqətən, ədəbiyyat adi insanların yalnız iki rəng kimi qavradığı rənglər mühitini bütün çalarları ilə göstərməsə belə bu çalarların əksərinə nüfuz etmək gücündədir. Ona görə də Sabir Bəşirov bütün mövzuları əbədi hesab edirdi. Yəni nəsillər dəyişsə də, mövzular qalırdı. O başqa məsələdir ki, yeni gələn nəsil özünə qədərki sənətkarların müşahidə edə bilmədiyi məqamlara da nüfuz edir. Filosof-tənqidçi bu məqamlara maraqlı fəlsəfi ümumiləşdirmələrlə rəng verə bilir: *"Ədəbiyyatın, demək olar ki, bütün mövzuları əbədidir və ədbiyyata gələn hər bir fərd (yaxud əbədi nəsil) kəşf*

səbəbdən də öz monoqrafiyasına (məqalələr toplusuna) Xələflinin maraqlı bir povestindən epiqraf gətirib: *"... İnsanların ağıllı vaxtı idi. Dünyanın da işlərinin yaxşı zamanı.Ata övladlarına dedi: - Əgər çaylarınızda sular azaldısa, bulaqlarınız qurudusa, ağaclarınızın yarpaqları saraldısa, çiçəkləriniz bar gətirmədisə... küsülü olduğunuz adamlarla barışın"* **(Ə.R.Xələfli, "Qiyamətdən bir gün əvvəl" povestindən).** Bu bir neçə cümlənin içərisinə yığılmış dərin mahiyyətə varmaq o qədər də asan deyil. Amma Sabir üçün həmin epizodda ifadə olunmuş müəllif mövqeyini dərk etmək qətiyyən çətin olmayıb. Elə əslində o, tədqiqata cəlb etdiyi əsərlərdə müəllifin bu mövqeyini izləyə bilib. Ona görə də elə insanları birliyə, anlaşmaya çağıran mahiyyətə daha çox önəm verib.

Kitabda birinci məqalə *"Reallaşmayan arzular"* adlanır. Və bu məqalə Əli Rza Xələflinin *"Üçüncü dünyanın qorxusu"* povestinin tədqiqinə həsr edilib. Həmin povest zamanımız üçün az qala mübahisəyə çevrilən əxlaq və mənəviyyat məsələlərinə bədii fonda münasibət bildirir. Müəllif də bu xətti izləyir. O öz qeydləri ilə əsərin oxucu qarşısında qoyduğu problemi açmağa cəhd göstərir. İnamla demək olar ki, həmin məqalədə povestin alt qatında gizlənmiş olan məqamların hamısına işıq salır.O yazır: *"İndi - mənəviyyata, mənəvi-əxlaqi dəyərlərə çox böyük basqı və təhlükə yarandığı bir dövrdə söyüşə, bayağı ədəbi qəhrəmanlara, parno "ədəbiyyata" yox, gözəlliyə ehtiyac var..."*. Doğru deyir. Sərt Sovet qadağaları mühitindən çıxandan sonra insanlara birdən-birə bağlı

Kitabda ikinci məqalə *"Bütöv portretdən cizgilər"* adlanır. Bu məqalədə müəllifin əsas diqqəti sənətkar şəxsiyyəti məsələsinə yönəlir. Axı məşhur tənqidçi-alim Yaşar Qarayev də *"Meyar şəxsiyyətdir"*, - deyirdi. Bu mənada Sabir Bəşirov müasiri olaraq yaxından tanıdığı sənətkarı bütövlüklə müşahidə edir. Essevari düşüncələrlə bu bütövlüyü tərənnüm edir: *"Əli Rza Xələflinin bütövlükdə yaradıcılığı - poeziyası, publisistikası, tədqiqatları və nəsrində başqa məsələlərlə yanaşı ciddi sosial problemlər də önə çəkilir, düzgün münasibət bildirilir... Gərək "xəstəliyi" düzgün müəyyən edəsən ki, əlacı tez tapıla..."*. Məlumdur ki, sənətkarın özünü tam ifadə etməsi müəyyən tarixi çərait də vacibdir. Onu əhatə edən ədəbi mühitin özü də bu məsələdə xüsusi əhəmiyyət kəsb edir. Yəqin ki, Sabir Bəşirov elə bu mənada Xələflini bəxtli sənətkar hesab edir: *"Əli Rza Xələflinin də bir məsələdə bəxti gətirib - Azərbaycan incəsənətinin, ədəbiyyatının, eliminin sayılıb-seçilən simaları onun yaradıcılığına biganə qalmayıblar. Onlar da Ə.R.Xələfli haqqında düşüncələrini yazıblar və yazırlar. Bu iki cildlik kitab da dediyimin əyani sübutu... Əli Rza Xələfli kimi sənətkarlar, böyük ziyalılar nəslinin davamçıları haqqında hər nəsil öz düşüncələrini yazacaq, çünki Ə.R.Xələflinin nəhəng miqyaslı yaradıcılığı buna imkan verir..."*. Bu məqaləni S.Bəşiov Xələflinin 60 illik yubileyi ərəfəsində yazıb. Görünür, onun üçün sənətkarın yaşının 60 illik dönəmi xüsusi əhəmiyyət kəsb edib. İndiki çətin, stress dövründə sənətkar 60 yaşına qədər özünü ifadə edə bilibsə, bu

Onlar əbədiyyətdə olduğu üçün bizdən ötrü əlçatmaz olurlar.

Azərbaycanın çox istedadlı filosof-tənqidçisi Sabir Bəşirov da dövrümüzün maraqlı ziyalılarından biri idi. İndi onun qələmindən çıxmış olan hər bir yazı təkcə mövzusuna görə deyil, həm də müəllif hisslərini və həyəcanlarını özündə yaşatdığı üçün bizə çox dəyərlidir.

**"Əli Rza Xələfli: Ədəbi yol - əbədi yol"** kitabını vərəqlədikcə onun mənəvi mühitinin zənginliyi hədsiz dərəcədə dərin təəssürat yaratması ilə diqqətimi çəkir. Hər cümlə, hər abzas, hər səhifə yeni fikir layları ilə müəllif məntiqinin gücünü göstərir. Onun hər hansı bir ədəbi mətnə münasibəti təkcə sözə münasibəti deyil, elə sözün müəllifinə münasibətlə də məhdudlaşmır. Bütövlükdə cəmiyyətə, insanlara münasibət təsiri bağışlayır. Elə bil ki, Sabir Bəşirov üçün hər bir söz bir canlı varlıqdır. Söz onun gözlərinin qabağında nəfəs alır, gülür, nikbinliklərlə dolu insan münasibətlərini aşkara çıxardıqca sevinir, həyatda baş verən faciələrə ağlayır. Söz sevinə bildiyi qədər həm də kədərlənir.

Bəzən mövzu düşüncənin alt qatına o qədər sirayət edir ki, onun cazibəsinə düşdüyünü heç hiss etmirsən. Mövzunun orbitində dolanırsan. Onun əhatə dairəsini varlığına yığırsan.

Sabir Bəşirovun məqalələrini çevirdikcə sanki real həyatdan uzaqlaşır, *"Söz"* adlı bir planetə düşmüş kimi olursan.

S.Bəşirov müasirlərimiz haqqında yazarkən onların mənəvi mühitlərini həm əsərləri ilə tədqiq edir, həm də şəxsi münasibətlər zəminində müşahidələri əsasında xarakterizə edir.

Tənqidçi alim kimi bədii yaradıcılığa fəlsəfi ümumiləşdirmələrlə münasibət bildirməsi onun düşüncələrinin hansı trayektoriya cızdığını göstərir. Ədəbiyyat və yazıçı mövqeyi onun yaradıcılığında əsas tədqiqat obyektidir. Elə kitabda verilmiş ilk məqalədən nümünə üçün gətir-

*olunmuş Amerikanı müxtəlif yönlərdən yenidən kəşf edir. Bu, ardıcıl və arasıkəsilməz prosesdir. Eramızdan əvvəl yazılmış poeziya, yaxud nəsr nümunələri ilə bu gün yazılan mətnlər arasında nə qədər oxşarlıq, hətta çox oxşarlıq (bəzi məqamlarda fikrin tam üst-üstə düşməsi) var. Eyni zamanda fərqlilik, bənzərsizlik də var. Bu fərqlilik, bənzərsizlik isə həm üslubdur, özünəməxsusluqdur, həm də yenilikdir"*. Zənnimcə, bu qeydlər S.Bəşirovun ədəbiyyata münasibətini, ədəbiyyatı sanki bir planet kimi görməsi haqqında doğru-düzgün təsəvvür yaradır.

Filosof-tənqidçi "Əli Rza Xələfli: Ədəbi yol- əbədi yol" kitabına 11 məqaləsini daxil edib. Təkcə elə həmin məqalələrin adlarına diqqət etmək bəs edir ki, Sabirin bədii yaradıcılıqda mahiyyəti necə gördüyünü başa düşəsən. Məqalələrin adlarını təqdim edirəm: *"Reallaşmayan arzular"*, *"Bütöv portretdən cizgilər"*, *"Sözün min bir rəngi"*, *"Xələflinin düşüncə saatı"*, *"Sözün gücü"*, *"Mən işıq görürəm"*, *"Əbədi həyat arzusu"*, *"Amalın və əməlin birliyində"*, *"Xələfli fenomeni"*, *"Sözün və qanın çağırışı"*, *"Beş ilin hesabatı"*. Bu yazıların hər biri ayrılıqda bitkin fəlsəfi əsərdir. Təkcə dövrümüzün insanlarını deyil, gələcək nəsilləri də düşündürə biləcək gücdə olan fikir inciləridir.

Sabir Bəşirov Əli Rza Xələflinin yaradıcılığını mükəmməl öyrənmişdi. Əgər yaşasaydı, yəqin ki o, təkcə bu məqalələrlə kifayətlənməyəcəkdi. Xələfli yaradıcılığını dərindən və əhatəli tədqiqata cəlb etməklə daha möhtəşəm monoqrafiyalar da yazacaqdı. Zənnimcə, hər bir məqalə həmin monoqrafiyalar üçün sıxılmış müəllif münasibətini ifadə edir.

Sabir Bəşirov üçün Xələflinin həyata, cəmiyyətə münasibəti xüsusi əhəmiyyət kəsb edirdi. O, dostunun yaradıcılığında insanları anlaşmaya çağıran, insanları birliyə dəvət edən motivləri dəqiq müşahidə edirdi. Görünür, elə bu

olan azadlıq qapıları açıldı. Və bir çoxları bəxş olunan azadlıq iksirindən öz düşüncələrinə uyğun faydalanmağa başladılar. Narkomaniya, parno həyat, seks mühiti... insanları daxilən yeyib dağıtmağa başladı.

Şübhəsiz, Sabir Bəşirov hiss edib ki, müəllif məhəbbətə, sevgiyə yüngül düşüncə ilə yanaşmaq böyük faciələr doğurur qənaətindədir. Müəllifin bu mövqeyini (bəlkə də xəbərdarlığını) özünəxas fəlsəfi ümumiləşdirmələrlə sözə gətirir: *"Mənimçün "Üçüncü dünyanın qorxusu" povesti ilk olaraq buna görə dəyərlidir - əxlaqın, mənəvi dəyərlərin gözdən düşdüyü, bilərəkdən aşağılandığı bir dövrdə saf duyğuları, gözəlliyi təsvir və təbliğ etməyə nə qədər mənəvi ehtiyacımız var... "Üçüncü dünyanın qorxusu" bu mənəvi aclığı, ehtiyacı ödəyir..."*. Göründüyü kimi, S.Bəşirov yazıda sözün həqiqi mənasında hədsiz həssaslıq göstərir. Mahiyyətə qəlbinin odu ilə varır. Cəmiyyət və həyat münasibətləri fonunda öz qənaətlərini də ifadə edir: *"Cəmiyyət-fərd münasibətləri heç vaxt hamar, analşıqlı olmayıb, bu münasibətlər harmoniyaya əsaslanmayıb. Əksinə, bu münasibətlər gərginlik, anlaşmazlıq, ziddiyyətlə müşayiət olunub. Cəmiyyət fərdin azadlığını, hərəkətlərini, istəklərini məhdudlaşdırıb, çərçivəyə salıb. İctimai fikir, ictimai rəy, ictimai qınaq cəmiyyətin xeyrinə olur, ancaq ictimai fikir, ictimai rəy, ictimai qınaq pərdəsi altında fərdin hüquqlarına qəsd olunur. Əlbəttə, burada söhbət özbaşınalıqdan, hərc-mərclikdən yox, cəmiyyətin şüurunda hələ əksini tapmamış, formalaşmamış, ancaq gerçəkliyi düzgün əks etdirən arzu, istək və hərəkətlərdən gedir..."*. Şübhəsiz, ədəbiyyat tam gerçəklik deyil. Hər halda arzulanan geçəklikdir. Bu mənada Sabir Bəşirov cəmiyyətin taleyi üçün məsuliyyət daşıyan ədəbiyyatı məmnuniyyətlə tərənnüm edirdi.

çox dəyərlidir və Sabir də, görünür, elə bu mövqedən məsələyə yanaşır.

S.Bəşirovun kitabda nisbətən həcmcə kiçik və xülasə təsiri bağışlayan bir məqaləsi də dərc olunub: *"Sözün min bir rəngi"*. Bu məqalə Xələfli yaradıcılığına münasibət bildirən müəlliflərin kimliyinə diqqəti yönəldir. Yazıda Xələfli yaradıcılığını müxtəlif yönümlərdən təhlil edən onlarca görkəmli elm və sənət adamları haqqında məlunat verilir.

Bu kitabda diqqətimi cəlb edən daha bir yazı *"Xələflinin düşüncə saatı"* adlanır. Yazıda xalq yazıçısı Anarın, akademik Teymur Bünyadovun, professor Qəzənfər Kazımovun, professor Təyyar Salamoğlunun yazıları təhlil edilir. Əlbəttə, bu təhlillər qısa xülasə şəklində ifadə olunur. İmamverdi Əbilovun, Nizaməddin Şəmsizadənin, Nəriman Həsənzadənin, Nizami Cəfərovun Xələflinin yubileyi ərəfəsində qələmə aldıqları yazılar sənətkarın yaradıcılığına zamanın münasibəti təsirini bağışlayır. Sabir Bəşirov həmin məqaləsini belə bir maraqlı sonluqla bitirir: *"Yubiley tədbirində Xalq yazıçısı, böyük ustadımız Anar Ə.R.Xələfliyə qiymətli hədiyyələr sırasında bir qol saatı da bağışladı. Zənnimcə, bunun da böyük rəmzi mənas var... Xələflinin düşüncə mexanizmi ahəngdar və əbədiyyətə hesablanmış saata çox bənzəyir"*. Yaxşı mənalandırmadır. Müəllif sanki insan ömrünün ritmləri ilə saat mexanizminin ahəngini müqayisəyə çəkir. Və elə insanın özünü saat hesab edir.

Sabir Bəşirov öz kitabına *"Sözün gücü"* adı ilə daxil etdiyi məqaləsini Xələflinin bayatılarına həsr edib. Məlumdur ki, Xələflinin bayatı yaradıcılığı onun poeziyasının xüsusi bir qoludur. Xələfli bayatılarının ən yaxşı məziyyətlərini o, ədəbi örnəklər əsasında şərh edir.

***(Davamı 11-ci səhifədə)***

# SABİR BƏŞİROVUN ƏDƏBİ YOLU, ƏBƏDİ YOLU

***(Əvvəli 10-cu səhifədə)***

**“Od” romanı haqqında Sabir Bəşirov “Mən işıq görürəm” adlı məqalə ilə çıxış edir. “Od” romanınınmürəkkəb quruluşunu şərh etməklə bərabər obrazların insan taleyi ilə bağlı məqamlarda təsir gücünü göstərir.**

**Tənqidçinin gücü təkcə istedadında deyil, həm də özünü ifadə imkanlarını reallaşdıra bilməyindədir. Sabir Bəşirovun da “Od” romanı haqqında yazdığı məqalədə onun düşüncəsinin sərhədsiz imkanları duyulur. Bu böyük ədəbiyyat adamı indi həyatda yoxdur. Ancaq onun insan qəlbinin dərinliklərindən gələn hisslərinin ifadə olunduğu, düşüncə imkanından süzülən duyğularının əlvanlığı oxucunu sözün həqiqi mənasında heyran edir. Elə bil ki, Sabir Bəşirovun cümlələrində onun öz ürəyinin döyüntülərini də hiss edirik.**

Məqalə müəllifi yazıçının bir əsəri haqqında danışmaq niyyətində olduğunu bildirsə də, əslində mahiyyətə daha dərindən gəlir. O, Xələflinin yaradıcılıq zəncirində odun təsadüfi halda olmadığını da diqqətə çəkir: yəni, Xələfli onsuz da bütün yaradıcılığında mövzunu günümüzdən götürsə də, tarixə qovuşmuş zaman olaylarından da ustalıqla qaynaqlanır. Sabir Bəşirov bu fikrini belə ifadə edir: *“Ə.R.Xələflinin poeziyası, publisistikası tarixlə bağlıdır və bunu Ə.R.Xələflinin yaradıcılığı haqqında yazan tədqiqatçıların demək olar ki, hamısı qeyd edir. “Od” romanı da istisna olmadı və bir daha sübut etdi ki, tarix Ə.R.Xələflinin yaradıcılığının qoşa qanadıdır...”.* Doğrudur, mən Xələflinin ayrı-ayrı kitablarının çapında yaxından iştirak etmişəm, onun kitablarının məzmunu ilə hərtərəfli tanışam. Və S.Bəşirovun qənaətlərinin də doğruluğunu elə öz məlumatımla təsdiq edirəm.

“Od” romanında insan cəmiyyətlə üz-üzə dayanır. Kamil insan... və demək olar ki, soyuqqanlı düşüncə imkanlarından məhrum olan kütlə.

Biz kütlə diktaturasının nə demək olduğunu 80-ci illərin sonundan başlanan olaylarda bütün çılpaqlığı ilə gördük. Bu əsərdə də təqribən belə bir qarşılaşmanın müəllif düşüncəsinin alt qatından keçən rəngləri Sabir Bəşirov da dəqiq sezə bilir: *“Cəmiyyət-fərd münasibətləri heç vaxt qarşılıqlı anlaşmaya əsaslanmayıb, demək olar ki, həmişə ziddiyyətli olub, bəzi məqamlarda isə açılmaz düyünə, cəmiyyətin fərdi “udmasına” səbəb olub. Bu “udma” ya fərdin laqeydləşməsi, ya da fərdin ölümü ilə nəticələnib.- “Od” romanının əsas ideyası, məncə, budur - cəmiyyət-fərd münasibətləri və bunun nəticələri. Bu münasibətlər insanın mağarada yaşadığı dövrdən bu günədək heç dəyişməyib. “Od” romanının özəlliyi ondadır ki, cəmiyyət-fərd münasibətlərində “özgələrə”, başqalarına yox, yaxınlara - “özününkülərə” istinad edir. “Başqalarının” adamı dərk etməməsi, hərəkətləri düzgün qiymətləndirməmməsi mümkündür və anlaşılandır. Bəs eyni ana-atanın övladları - qardaşlar və bacılar necə?!”.* Əsərin özündən gələn maraqlı məqamlar var ki, bunu da S.Bəşirov həssaslıqla tutur. Hətta uzaq əcdadlarımızla bağlı olsa belə, kütlə və fərd arasındakı ziddiyyətin günümüzdə də davam etməsini diqqətə çəkir.

“Od” romanında bir yuxu əhvalatı var. Mən həmin yuxunun bütün təfərrüatı ilə vermək istəməzdim. Amma əslində Sabir Bəşirovun tənqidçi yozumunda araya-ərsəyə gələn düşüncələr göstərir ki, bu əhvalat əslində yuxu deyil, real həyatın bir parçasıdır.

Hər halda S.Bəşirov yuxu əhvalatına seyirçi nəzərlə baxmır. Bu məsələnin fəlsəfi mahiyyətinə, hətta əcdadlarımızın həyatı ilə bağlı epizodlarla işıq salır. S.Bəşirov romanından gələn mahiyyəti - yəni mətnin diktəsini İsanın taleyi üzərində cəmləyir: *“Yuxu həyatın davamıdır - yuxuda insanlar ya həyatlarının davamını görürlər, ya da arzuladıqlarını. Əlbəttə, bu “yozum” yuxunun ən bəsit, ilk anda ağla gələn “yozumudur”. Aruz da yuxuda özünün mühakimə olunmasını - edam səhnəsini görür. İsa peyğəmbərin “günahı” məlum idi: onun insanlar üzərində hakimiyyəti var idi. Kahinlər isə insanlar üzərindəki hakimiyyətlərinə şərik çıxıb, bu hakimiyyətin əldən çıxmasını istəmirdilər. İsanın varlığı kahinlərin hakimiyyəti üçün təhlükə idi və ona görə İsanı çarmıxa çəkirdilər”.* Yarıməfsanəvi, yarımtarixi İsa və Ponti Pilat əhvalatı hamıya məlumdur. Yazıçı da həmin əhvalatı bilərəkdən yada salır. Çünki onun ədəbi qəhrəmanı Aruz da sanki İsanın taleyini yaşayır. Tənqidçi bu yerdə maraqlı sual qoyur və özü cavab verməyə çalışır: *“Bəs Aruzun “günahı” nə idi? Aruzun birinci günahı düz danışmasıdır - buna cəmiyyət dili acılıq deyir. Hətta anası da deyir ki, sənə elə mən tapşırmışdım ki, dilini acı eləmə. “Axı mənim dilim şirin heç nə görməyib” - Aruzun yalnız anasının və özünün bildiyi bu həqiqətə başı içkidən ayılmayan əyyaş qardaşı etiraz edir: “Görürsən, yenə danır, boynuna almır. Bəs anasını südü? Bu şirin deyildi?”. Ponti Pilatın yerində əyləşmiş anası həm həqiqəti deyir, həm də Aruzu mühakimə edənlərə qəzəblənir”.* Bu yerəd Sabir Bəşirov od romanından bir parçanı və son dərəcə xarakterik bir parçanı məqaləsinə daxil edir. Özü demiş, mühakimə edənlərin kimliyi də, mühakimədə əsas hakimin kim olduğu da romandan götürülən parçada qabarıq görünür.

Düşünürəm ki, Sabir Bəşirov həcmcə bir qədər artıq olan həmin parçanı məqaləyə təsadüfi gətirməyib. Bir insan taleyi üçün çox acı olan bir mənzərəni bu günün oxucusunun gözləri qarşısında canlandırmaq istəyib.

Yazının bu yerində mən də həmin parçanı oxucularıma olduğu kimi çatdırmaq istərdim. Qoy hər kəs oxusun və düşünsün; belə bir hadisə onun başına gəlib, ya yox? Demirəm ki, bu mənzərə olduğu kimi günümüzün reallığıdır. Əlbəttə, fakt kimi, cismanı cəza kimi real olmaya bilər. Amma mənəvi edamların ən yaxşı nümunəsi kimi ürək göynədən bir mənzərədir. Buyurun, oxuyun, əziz oxucular. Ancaq mətnin içərisində ayrı-ayrı məqamlara qısa, konkret cümlələrlə müdaxilə edən tənqidçi mövqeyini də nəzərdən qaçırmayın: *“Yox, yox, dayan. Mən Allahımı dana bilmərəm. O, anadan olanda mənim südüm olmadı. Bəlkə, doğrudan, o, şirin bir şey görməyib... Bəsdirin, axı bu, sizə neyləyib?”.*

*Aruzun əyyaş qardaşı: “... Nə demişəmsə, hamısına “düz deyil, böhtan danışma, ayıbdır” - deyib. Onun nə işinə qalıb, mən böhtan danışıram, ya danışmıram? Sözümün əvvəli-axırı düz gəlir, ya gəlmir? Mənim sözümü kasıb əvvəlcə dediklərimi yadıma salıb. Axı cümlənin əvvəlində belə deyirdin, indi ayrı cür danışırsan. Bəlkə, səhv deyirəm?”.*

*Aruz başı ilə bunu təsdiq edir. Ancaq anasının da “Niyə, axı sənin nə işinə qalmışdı?” - sualı onu təəccübləndirir. Ananın səsi: “Hə, elə bu? İndi neyləyək, elə təkcə buna görə kibriti çəkib ocağı qalayaq?”.*

*Aruzun o biri qardaşı irəli gəlir. “Alnından ənsəsinə sarı çapığı var idi. Güllə yeri idi. Aruz həmişə onu insanlığa yaraşmayan hərəkətlərinə görə qınayar, vecsiz danışığına, ləyaqətsiz davranışına görə ona deyərdi: “Sənin başının gülləsi kəmdi. Təkcə elə bu danışdıqlarına görə sənin başına bir güllə bəs edər”.*

***Aruzun “danqı” qardaşının da öz “məntiqi” var:*** *“...Başımdakı güllə yeri arvadımın “ənamıdı”. O, hər kim idi, mən onu saxlamaq istəyirdim. Lap gündüzlər başqasının arvadı, axşamlar mənim olsa belə. O, buna razı olmadı - dedi. - Mənim nəzərimdə heysiyyətin insanlığa dəxli yoxdur. Bunun kimlərsə uydurublar. Amma Aruz bütün aləmə car çəkdi mənim heysiyyətsiz olmağım barədə... Aruza görə, heysiyyətsiz adamın nəinki danışmağa, heç yaşamağa haqqı yoxdur”.* ***Alçaqlığını dərk etməyən, hətta ona bəraət qazandıran adama nə demək olar?!***

***Aruza daha bir “ittiham” digər qardaşından gəlir:*** *“Mənə də çox pislik eləyib. Məni adam içinə gətirib. Çöldə-düzdə olurdum, tərin, tozun, torpağın içində. Ayda bir dəfə bədənimə su dəymirdi. Ailəm, övladlarım da özüm kimi. Doğrudur, mənə hər cür əl yetirib. Ancaq sonra qabağımı kəsib... Çəkdiyim ucuz siqaretin hisi, ürəkbulandıran qoxusu canıma hopsa da, mənə əziz idi. Əlimdən qapıb yaxınlıqdakı bataqlığın içinə atdı. Özünün bahalı siqaretini mənə verdi...”.*

*“Daha nəyi gözləyirsiniz, od vurun, qoyun yansın. Mən onun cızdağının necə çıxmağını öz gözlərimlə görmək istəyirəm”* - ***bunu deyən də bacısıdır. Bacısının həyatını göz önünə gətirir:*** *“... Onda bacısının əri müharibədə idi. Uşaqları da körpə. Körpələrdən birini Aruz götürüb saxlamışdı. Bəlkə, vəziyyəti yüngülləşər deyə. Sonralar isə uşaq geri qayıtmamış, birdəfəlik Aruzun himayəsində qalmışdı. Dəfələrlə bacısı yarımgeyilmiş, geyilməmiş paltarlar gətirərdi qonum-qonşuya göstərsin. Bəlkə, alan olar. Aruzun özü çətin dolansa da, ailəsinin ağır güzəranından kasib paltarın pulunu verər, paltarları da satılmağa qoymazdı. Bunu anası da bilirdi...”.*

***Elə bunu bildiyi üçün də anası qəzəblə qızından soruşur ki, axı sənə nə pislik eləyib? Aruzun bacısı: “O, mənim sinəmə çalın-çarpaz dağ çəkib” - deyir...***

***Aruzun içki düşkünü olan və arvadını çərlədib öldürən qonşusu da Aruzdan narazıdır. Bir dəfə uşaqları onu sürüyüb bayıra atanda Aruz onu acılayır - yəni nə üçün sərxoşluq etdiyini irad tutur. Bu irad isə qonşuya yamanlıq kimi “gəlir”...***

***Kütlə işığı özünün düşməni hesab edir. Aruz isə işıqdır, oddur. Zaman-zaman od insanları məhv etmək üçün bir vasitə olmuşdu. Halbuki insanların bu odu əldə etməsi üçün min (bəlkə milyon) illər lazım olmuşdu... Kütlə ona görə işıqdan qorxur ki, o işıqda hər şey görünür - xüsusən, onların eyibləri...***

*“Kəsin, kəsin onun işığını, onun işığı bizim gözümüzü kor edib. Gözümüzü açıb dünyaya baxa bilmirik”* - ***kütlənin içərisindən gələn bu səsi Aruz tanıya bilmir. Bu, təbiidir:bu səs Odayı tonqalda yandırmağa çağırırdı. Bu səs Mələyi məcbur edirdi ki, zorla Malikə “yox” desin...”*** Dəhşətli fikir çarpışmalarını, qanı görünməyən edamın acı mənzərəsini həm yazıçı qədərincə verə bilib, həm də tənqidçi mənzərəni oxucuya öz müdaxiləleri ilə dəqiq və aydın çatdıra bilir.

Müəlif bu məqaləni o qədər dolğunluqla yazıb ki, hətta bir qədər diqqətli oxucu roman haqqında aydın təsəvvür qazandığını da etiraf edə bilər:

“Od” romanı od haqqındadır - od sözünün bütün anlamlarında. Od ibtidai insanın yaşamasında hansı rola malikdirsə, insan qəlbinin odu, işığı, istisi də insan üçün o qədər vacibdir. Daha doğrusu, başqa cür insanı təsəvvür etmək belə olmur. Odsuz, alovsuzişıqsız adam varsa, sadəcə canlıdır...”. Zənnimcə, bundan o tərəfə şərhə ehtiyac qalmır.

*“Əli Rza Xələfli: Ədəbi yol, əbədi yol”* kitabında Sabir Bəşirovun daha bir geniş və əhatəli məqaləsi diqqəti çəkir. Bu məqalə “Sözün və qanın çağırışı” adlanır.

Mənim rəhbərliyimlə bizim mətbəədə Xələflinin “Söz və qan” adlı çox dəyərli bir kitabı da çap olunub. Bu kitabın elə əsərin adına uyğun iki ədəbi qəhrəmanı var. Biri şair Xanəli Kərimlidir, digəri isə Azərbaycan ordusunun çox igid, qorxubilməz qəhrəmanı Ceyhun Orucəliyevdir. Onu da deyim ki, Ceyhun Orucəliyev elə Xanəli Kərimlinin qardaşı oğludur.

Xələflinin məntiqindən belə çıxır ki, qəhrəmanları nə qədər ictimai mühit yaradırsa, bir o qədər də ədəbi mühit yaradır. Yəni, Ceyhun Orucəliyev kimi Azərbaycan ordusunun igid zabiti şair Xanəli Kərimlinin vətənsevərlik duyğuları ilə süslənmiş poeziyasını ana südü kimi öz varlığına çəkmişdi və elə bu səbəbdən də ruhu etibarı ilə vətən fədaisi olmağa hazır idi. İmkan məhdudluuna görə daha bu məqalə haqqında geniş danışa bilmirəm.

Sabir Bəşirovun kitabdakı son məqaləsi “Beş ilin hesabatı” adlanır. Sabir Bəşirov “Kredo” qəzetinin fəal müəlliflərindən biri idi. O, qəzetin hər nüsxəsini oxuyur, münasibətini yazılı, yaxud da şifahi şəkildə bildirməkdən çəkinmirdi. Əlbəttə, uğurlara daha çox sevinirdi.-

Həmin yazıda Sabir Bəşirovun belə bir qeydi var: ***“Əli Rza Xələflinin inadkar fəaliyyəti sayəsində işıq üzü görən iyirminci yaşına çatmış “Kredo” qəzeti haqqında filologiya elmləri doktoru, professor Asif Rüstəmli xüsusi duyğu ilə yazır:*** *“Xələflinin “Kredo”su bir vaxtlar Nuhun gəmisinin missiyasını yerinə yetirirdi... Tufan bitdi... Sular çəkildi... Hər kəs tufandan əvvəlki işinin arxasınca getdi... Gəmi boşalsa da, əsas missiyasını yerinə yetirməsə də tarixdə insanlığı xilas edən “Nuhun gəmisi” kimi qaldı. Əli Rza Xələflinin də “Kredo”su Nuhun gəmisi kimi Milli Mətbuat tariximizin Gəmiqayasında əbədi yaşayacaqdır”.* Sabir Bəşirov “Kredo” qəzetinin ədəbi fəaliyyətini nə qədər yüksək qiymətləndirirsə, professor Asif Rüstəmli “Kredo” qəzetinin tarixi fəaliyyətinə nə qədər böyük dəyər verirsə, elə bilirəm ki, onlar mənim də rəyimi və münasibətimi ifadə etmiş olurlar.

Əli Rza Xələflinin “Kredo”su sözün həqiqi mənasında hər birimizin ədəbi, mənəvi həyatında xüsusi əhəmiyyət kəsb edib. Professor Qəzənfər Kazımovun da bir qeydi yadıma düşür: “Kredo” nə qədər bizi biz edibsə, biz də “Kredo”nu o qədər kredo etmişik. Sabir Bəşirov aydın düşüncələri ilə oxucunun mənəvi mühitinə gur işıq sala bilirdi. Onun qənaətləri yaxşı qənaətlərdir, reallığa əsaslandığı üçün yaşarı qənaətlərdir.

Sabir Bəşirovun “Əli Rza Xələfli: Ədəbi yol - əbədi yol” kitabı tükənməz zövq mənbəyidir. Özü də təkcə indiki zamanımız üçün yox, həm də gələcək nəsillər üçün.

***03.03.2022***